Central Audit
REALISE ABSOLUTE EXCELLENCE

Praxity
CORRESPONDENT
GLOBAL ALLIANCE OF INDEPENDENT FIRMS

**Tarix**: 29 mart 2013-cü il

**«Central Audit» məhdud məsuliyyətli cəmiyyəti**

**«Texnika Kapital Menecment » məhdud məsuliyyətli cəmiyyətinə**

Mən, AT/088 qeydiyyat saylı 047498 №li lisenziya ilə auditor fəaliyyəti həyata keçirən «Central Audit» məhdud məsuliyyətli cəmiyyətinin direktoru İbrahimli Vüsal Qasım oğlunun şəxsində və "Texnika Kapital Menecment" məhdud məsuliyyətli cəmiyyətinin direktoru İbrahimov Cəfər Qəməddin oğlunun şəxsində 13.03.2013-ci il tarixində bağlanmış müqaviləyə əsasən həmin cəmiyyətin 01.01.2012-ci il tarixdən 31.12.2012-ci il tarixədək olan dövr üzrə vergi bəyannamələrinin düzgünlüyünün auditi aparılmışdır.

Cəmiyyətin rəhbərliyi vergi bəyannamələrinin Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə vergi bəyannamələrinin hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Bizim vəzifəmiz apardığım audit əsasında həmin maliyyə hesabatları və vergi bəyannamələri üzrə rəy ifadə etməkdir. Biz auditi vergi məcəlləsinin tələblərini uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və vergi bəyannamələrində əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə vergi bəyannamələrində göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq vergi bəyannamələrinin əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə vergi bəyannamələrinin təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyim audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Bizim fikrimizcə, 31.12.2012-ci il tarixinə Cəmiyyətin vergi bəyannamələri Azərbaycan Respublikası Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Auditorun hesabatı 29.03.2013-cü il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə "Central Audit" məhdud məsuliyyətli cəmiyyətində saxlanılır.

**"Central Audit" məhdud məsuliyyətli cəmiyyətinin**

**Direktoru** **Vüsal İbrahimli**

AZƏRBAYCAN RESPUBLİKASI • CENTRAL AUDIT MMC • Praxity CORRESPONDENT GLOBAL ALLIANCE OF INDEPENDENT FIRMS • CENTRAL AUDIT LLC • AZERBAIJAN REPUBLIC

Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri,
H.Babaşov küç 6, AZ 1009

Tel: (+99 412) 437 81 68; E-mail: info@centralaudit.az
Veb sayt: www.centralaudit.az